Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
12 may 2022- ci il


# Günəş tək işıq saçır ruhu doğma kəndinə: Şəhid Firdovsi Tahirov

**Sentiyabrın 30-u idi. Lerikə bir neçə acı xəbər gəlmişdi. Onlardan biri də Firdovsi Tahirovun şəhid olması xəbəri idi. El-oba, hökumət nümayəndələri yığışıb şəhid Firdovsini böyük ehtiramla dəfn etdilər, onun məzarını gül dəstələrinə, Azərbaycanın üç rəngli bayrağına bükdülər, şəhidə Allahdan rəhmət dilədilər.**



Firdovsi Lerik rayonunun Dico kəndində 1997-ci illin mart ayında dünyaya gəlib. Ona mərhum müəllim Hacıməmməd Quluzadə, Sahil Şirvanov kimi təcrübəli müəllimlər dərs dedilər. Onlar Firdovsi kimi çalışqan, elmə-biliyə maraq göstərən, ədəb -ərkan əxs edən şagirdlərə Vətəni sevməyi, yurda sahib olmağı öyrətdilər. Firdovsi orta məktəbi Tikəband kənd tam orta məktəbində davam etdirdi. O qara, çovğuna, yağışa , küləyə baxmayaraq hər gün altı kilometr yol qət edib Tikəbanda - məktəbə, doğma müəllimlərdən elm-bilik almağa gedirdi.

Nəhayət, məktəbi yüksək nəticələrlə başa vurdu. 2015 -ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsinə qəbul oldu. O gün atası Balaxan Quliyevin fərəhli çağları idi. Hamı onu oğlu Firovsinin ali məktəbə qəbul imtahanından 500 bala yaxın nəticə göstərməyinə görə təbrik edirdi. Balaxan kişi sevindikcə oğlu Firovsinin məktəb illəri onun gözlərinin önünə gəliridi.

Universitetə qəbul olan kimi, elə ilk gündən dərslərə ciddi yanaşdı kitablardan ayrı döşmədi. Çalışqanlığı, mehribanlığı, dostluqda sədaqəti, Vətənə məhəbbəti ilə fərqləndi.

**2019-cu ildə ali məktəbi bitirmək üzrə idi. Məqsədi bir vaxtlar təhsil aldığı təhsil ocaqlarında dərs demək idi. Ancaq sən saydığını say, gör fələk nə sayır.**

Firdovsi dövlət imtahanlarını verməmiş, ərizə yazaraq könüllü cəbhəyə yola düşdü. Onun cəbhə yolları Tovuz istiqamətindən başladı. Azərbaycan əsgərinin düşmənə cavabı Firdovsini daha da ruhlandırırdı. Sonra azğınlaşmış düşmən Qarabağda Azərbaycanın digər sərhədyanı rayonlaqrında geniş miqiyaslı hərbi əməliyatlara başladı, dinc sakinlərə, mülki obyektlərə zərbə endirdi.Belə bir məqamda Firdovsi Tahirovun daxil olduğu bölmə Tərtər istaqəmətində irəliləyir, düşmənə qarşı vuruşan qəhrəman və cəsur əsgərlər qorxu nə olduğunu bilmir, hamı inanırdı ki, bu əks-hücum 90-ci illərdəkinə bənzəmir. Düşmən güclü istehkamlara , müdafiəyə malik olsa da, Azərbaycan Ordusunun bölmələri qarşısında tab gətirmir və qəti qələbə uğrunda son nöqtəni qoyacaqlarını yəqin etmişdi . Düşmən duşməndir. Hara gəldi mərmi, güllə atır, Azərbaycana zərər vurmaq , onun mülki obyektlərini dağıtmağa çalışır Azərbaycan əsgərləri mərddir, qorxmazdır, düşmənə sarsıdıcı zərbələr vururdu.

44 günlük Vətən mühribəsi 30 illik Qarabağ həsrətinə son qoydu. Böyük qələbə yolu şəhidlikdən, igid, cəsur və ölümün gözünə dik baxan, səngərdən-səngərə, döyüşdən-döyüşə atılan, müqəddəs Vətən sevgisini öz qanları ilə torpağa yazan oğulların qeyrət və hünərindən keçdi.

Analar, atalar döyüşlərə qatılan övladları ilə qurur duysalar da, ürəklərindəki yaralar sağalan deyil. Hələ də yollara baxan, ciyərparalarını səbirsizliklə gözləyən valideyinlər var. Onlara elə gəlir ki, övladları getdiyi yolla da geri qayıdarlar. Lakin... Qələbə qurbansız əldə olmur.

Firdovsinin dəfninə qədər mən heç vaxt Dicoda belə izdhamlı dəfn görməmişdim. Lerikin çoxlu tanınmış insanları, İcra Hakimiyətinin Başçısı, təhsil , səhiyyə, ayrı-ayrı idarə-təşkilat işçiləri dəfndə iştirak edirdilər.

**Firdovsinin dəfnində yer-göy ağlayırdı. İnsanların bu sözləri: "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı bütövlikdə Dico kəndi boyu səslənirdi.**

Firdovsinin böyük qardaşı Həşimi ovundurmaq olmurdu. Elə hey göz yaşı tökür, şəhid qardaşını çağırırdı.

Tikəband kənd ərazi icra nümayəndəsi Bəyəli Bədəlov, Əmrulla Şirvanov, Tofiq Hacıyev, Xəzair Şahmarov , müəllimi Sahil Şirvanov, Rəcəb Şirvanov, Ağaxan Quliyev, jurnalist dostum Respubliknın Əməkdar jurnalisti " Lerik" qəzetin redaktoru İdris Şükürlü şəhid Firdovsi barədə xoş sözlər dedilər. Bəyəli Bədəlovun dəfn mərasimində göstərdiyi təşkilatçılığı xüsusilə qeyd olunmalıdı. Adları qeyd olunanlar dedilər ki, Firdovsi çox vətənpərvər, cəsur, qorxmaz və igid bir əsgər kimi təkcə ata- anasının yox, bütün el-obanın başını ucaltdı,o bir daha Vətəni çox sevdiyini göstərdi, ölümü ilə ölməzlik qazandı .

**Dico kənd sakini Balaxan kişinin dayısı oğlu Rəcəb Şirvanov dedi:**

- Firdovsi Dico kəndinin üçüncü çəhid oğludur. Qarabağ qaziləri



Habil Şahbazov, Fəxrəddin Ağayev, Mais Həndəmov, şəhid palkovnik leytnat Mehman Mirəzizoğlu Şirvanov, şəhid Mustafa Quliyevlə fəxr edirik. Onlar bizə başucalığ gətiriblər. Şəhid olsun, ya qazi - fərqi yoxdur, onların hər biri ən xoş sözlərə layiqdir.

Yeri düşmüşkən fərəh hissi ilə qeyd edək ki, Firdovsinin məzarı onun əmisi şəhid Mustafa Quliyevin məzarı yanındadır. Şəhid Mustafa barədə mətbuatda, kitablarda yazılıb şəhidin xatirəsi unudlmur. Biz Firdovsinin şəhid olmasının üçüncü günü Dico kəndində olarkən beş gəncin - Firdovsinin tələbə dostlarının həyətə girdiyini gördük. Onlar çox pərişan görünürdülər. Sevman Baxşiyе, Taleh Kərimov, Elməddin Səfərov, Mircavad Ağalarov, Seymur Alisgəndərov Astara, Ağdam, Tovuz, Nefçala, Ağdaş rayonlarından gəlmişdilər. Hər birinin ürəyi sözlə dolu olsa da qəmli görünürdülər. Onların hər biri Firdovsinin qəhrəmanlığını təkrarlamağa hazır idi...

**Qarabağ torpağları düşmən tapdağından azad oldu, şəhidlərin ruhları şad oldu, xalqın, el-obanın fərəhi, sevinci artdı...**

Azərbaycan Resbublikasının Prizdenti İlham Əliyev xalqa müraciətində şəhidlərə xitabən deyib: "... Biz bu qələbəyə görə onlara borcluyuq. Şəhidlər torpaqlarımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu bizim hamımızın qələbəsidir, bütün Azərbaycan Xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır".

Bu dövlət başçımızın şəhidlərə, onların ruhuna böyük ehtiramı ifadə edir. Diconun şəhid oğulları da bu ehtiramla əhatələnib...

Neçə-neçə on illər ötsə də şəhidlərin işıqlı ömrü sonrakı nəsillər üçün nurlu, unudlmaz ömür kimi yaşayar. Onlar əbədiyaşar bir ömür keçiblər. Azərbaycan ərazi bütövlüyünün bərpası uğrunda şəhid olanları can ortağımız bilirik. Yəqin ki, Firdovsinin də silahdaşlarının da ruhu Qarabağda-işğaldan azad olunmuş məmləkətin səmasında uzun müddət gəzib-dolaşacaq, zirvələrdə ucalan üç rəngli bayrağımızı görüb, təsəlli tapacaq. 44 günlük müharibədə o vaxt dicolularda yanılmamışdı. Onları yaşadan, onlara ruh verən. Azərbaycan Ordusu, Ali Baş Komandan İlham Əliyevə inamı idi. Birliyimiz qarşısında düşmən tab gətirə bilmədi, həm hərbi, həm də, diplomatik cəbhədə birləşdi.

İkinci Qarabağ müharibəsində rəşadətli ordumuz 44 gün ərzində düşmənin hərbi texnikasını və canlı qüvvəsini, keçilməz hesab etdikləri sədləri darmadağın edərək Qarabağı azad etdi. Şəhid Firdovsinin ruhu da bu gün şaddır ki, Vətənin torpaqları işğaldan azad olub.

**Məğrur Azərbaycan əsgəri Firdovsi Tahirov Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra " Vətən uğrunda", "Cəsur döyüşçü" "Şücaətə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir. Bu medallar qələbənin rəmzi kimi Firdovsinin yarımçıq ömrünə günəş tək işıq saçır...**

**Əliməmməd AĞAZADƏ,**
**"Məşəl" jurnalının baş redaktoru**
**İdris ŞÜKÜRLÜ, "Lerik"qəzetinin redaktoru, Əməkdar jurnalist**